# Bakı Enerji Forumu:

# “Yaşıl enerji”yə keçiddə uğurlu təşəbbüslər

*Dünən Bakı Konqres Mərkəzində Xəzər regionunun ən böyük tədbiri olan 29-cu Bakı Enerji Forumu işə başlayıb.*

Forumun ilk günündə "Enerji təhlükəsizliyi və dayanıqlılığa dair beynəlxalq əməkdaşlıq", "Enerji təhlükəsizliyi 2.0", "Xəzər regionunda kəşfiyyat və hasilat imkanları", "Davamlı Enerji: Xəzər regionunda Yaşıl Enerji Potensialı" və "Yeni texnologiyalar və rəqəmsallaşdırma" mövzularında panel müzakirələri keçirilib.

Birinci sessiyada çıxış edən Azərbaycanın energetika naziri Pərviz Şahbazov bildirib ki, Avropaya illik qaz tədarükü son 3 ildə 8,2 milyard kubmetrdən 12 milyard kubmetrə yaxın artıb. BP və "Nobel Energy" ilə Şərqi Zəngəzurda "yaşıl enerji zonası" çərçivəsində daha iki günəş stansiyasının təməlqoyma mərasimi nəzərdə tutulur. Pərviz Şahbazov vurğulayıb ki, bütün bu tədbirlər Azərbaycan Prezidentinin elan etdiyi "Yaşıl dünya naminə həmrəylik ili"nə uyğun atılan addımlardır.

Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto çıxışı zamanı bildirib ki, Macarıstan enerji təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ilə əməkdaşlıq əlaqələrini davam etdirəcək. O qeyd edib ki, alternativ enerji istehsalını artırmaq lazımdır: "Azərbaycan bu sahədə böyük işlər görür və Avropaya 1 qiqavat həcmində alternativ enerji ixrac etməyi planlaşdırıb. Azərbaycanın enerji sahəsində reallaşdırdığı layihələr qlobal xarakter daşıyır". Cənub Qaz Dəhlizinin genişləndirilməsi nəticəsində Azərbaycanın Avropaya təbii qaz ixracının həcmi artacaq. Macarıstanın təbii qaza illik tələbatı 9-10 milyard kubmetrdir.

Sloveniyanın ətraf mühit, iqlim və energetika nazirinin müavini Tina Sersen çıxışında bildirib ki, Sloveniya Rusiya qazından asılıdır: "Məqsəd yeni enerji mənbələri tapmaqdır. Azərbaycanla bu sahədə əlaqələri daha da gücləndirə bilərik. Enerji siyasətindən danışanda bizi burada birləşdirən müştərək cəhətlər var. Hər iki ölkənin böyük potensialı var. Biz "yaşıl enerji" sahəsində təcrübə mübadiləsi edə bilərik". O vurğulayıb ki, Sloveniya ölkəsi Azərbaycanın COP29-a sədrliyini yüksək təqdir edir.

Avropa Komissiyasının Enerji Platformasının İşçi Qrupunun və Beynəlxalq Əlaqələr İdarəsinin Enerji üzrə baş direktoru Kristina Lobillo Borrero öz növbəsində qeyd edib ki, Azərbaycan Avropa İttifaqı (Aİ) üçün çox etibarlı partnyordur. Təkcə qaz yox, həmçinin enerji keçidi üzrə də paralel işlər aparılır.

Qaz İxrac Edən Ölkələr Forumunun (GECF) baş katibi Mohamed Hamel bildirib ki, geosiyasi məqamların mövcudluğu iqtisadiyyata təsir edir.

Bərpa Olunan Enerji Agentliyinin (IRENA) baş direktoru Françesko La Kamera diqqətə çatdırıb ki, dünya ölkələrinin 68 faizi neft və qaz idxal edir. Enerjiyə olan tələbatı ödəmək üçün istehsal artır ki, bu da "yaşıl enerji"yə keçidi ləngidir. Lakin Azərbaycan Prezidentinin həyata keçirməyə çalışdığı layihələr bu keçidin təmin olunması istiqamətində atılan böyük addımdır.

Beynəlxalq Enerji Agentliyinin (IEA) Enerji təchizatı bölməsinin rəhbəri Kristof Makqleyd "Enerji təhlükəsizliyi və dayanıqlılığa dair beynəlxalq əməkdaşlıq" mövzusunda keçirilən plenar iclasda qeyd edib ki, Azərbaycanla metan qazı ilə bağlı xüsusi bəyannamələr imzalanacaq.




Energetika nazirinin müavini Kamal Abbasov "Liderlərin çıxışları: Enerji təhlükəsizliyi 2.0" mövzusundakı panel müzakirəsində çıxışı zamanı deyib ki, ötən il Azərbaycanda neft hasilatı 30 milyon ton olub ki, bunun da 25 milyon tonu ixrac olunub. Bu il Azərbaycanda neft hasilatı 30 milyon ton ətrafında olacaq.

"ACWA Power" şirkətinin sədr müavini və idarəedici direktoru Raad al Saady çıxışında qeyd edib ki, Azərbaycanda enerjiyə keçid uğurla həyata keçirilir, region və regiondan kənar hüdudlarda böyük işlər görülür: "Bu fəaliyyətinə görə Prezident İlham Əliyevə öz təşəkkürümü bildirirəm".

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz diqqətə çatdırıb ki, "Əsrin müqaviləsi"nin imzalanmasından ötən 30 il müddətində Azərbaycan böyük inkişaf yolu keçib və neft ixracından daxil olan vəsait bu gün yaşıl enerjiyə keçid üçün də istifadə olunur.

SOCAR-ın prezidenti Rövşən Nəcəf çıxışında vurğulayıb ki, SOCAR etibarlı partnyor olub və buna davam edir: "Əsas hədəflərimizdən biri ölkəmiz, qonşularımız və digər ölkələr üçün etibarlı enerji təchizatçısı rolunu oynamaqdır". O vurğulayıb ki, SOCAR tərəfdaşları ilə sıx əməkdaşlıq edir: "Biz tərəfdaşlarımızla müzakirə aparmağa davam edirik və bütün tərəfdaşlar yeni layihələrin həyata keçirilməsinə böyük maraq göstərirlər. SOCAR neft-qaz şirkəti kimi yaradılsa da, artıq enerji şirkəti kimi fəaliyyət göstərir. Onu da bildirim ki, qeyri-ənənəvi enerji üçün quruda və dənizdə böyük potensial mövcuddur. Tərəfdaşlarla birlikdə bunun üzərində işləyirik".

"Saudi Aramco" şirkətinin baş vitse-prezidenti Fahad K.Al Dhubaib qeyd edib ki, Bakı Enerji Forumu enerji təhlükəsizliyindən danışmaq üçün gözəl fürsətlər yaradır. O bildirib ki, enerji təhlükəsizliyi çox vaxt geosiyasətlə bağlı olur. "Saudi Aramco" olaraq üzərimizə böyük məsuliyyət götürmüşük. Əsas hədəfimiz enerji təhlükəsizliyini təmin etməkdir".

SOCAR-ın vitse-prezidenti Əfqan İsayev "Davamlı Enerji: Xəzər regionunda Yaşıl Enerji Potensialı" mövzusundakı panel müzakirəsində çıxışı zamanı deyib ki, sənaye müəssisələrinin ənənəvi enerjidən bərpaolunan enerjiyə keçməsi çox vacibdir.

"ACWA Power" şirkətinin EVP - regional direktoru Abid Malik diqqətə çatdırıb ki, "ACWA Power" Azərbaycana 5 milyard dollara yaxın investisiya yatıracaq. O bildirib ki, investisiya əsasən bərpaolunan enerji sahəsinə yatırılacaq.

"Masdar" şirkətinin Asiya və Afrika regionlarında inkişaf və sərmayələr üzrə direktoru Abdulla Zayed bildirib ki, Azərbaycanda enerji sahəsində potensial həddən artıq yüksəkdir və bununla bağlı ölkədə görüləcək işlər var.

"Davamlı Enerji: Xəzər regionunun yaşıl enerji potensialı" mövzusunda keçirilən panel iclasda çıxışı zamanı energetika nazirinin müavini Orxan Zeynalov bildirib ki, Azərbaycanda alternativ enerji mənbələrindən əldə edilən yaşıl enerjinin "Xəzər-Qara dəniz-Avropa" Yaşıl Enerji Dəhlizi ilə Avropaya nəql edilməsi üçün zəruri şərait və komponentlər mövcuddur. O.Zeynalov bildirib ki, hazırda Mərkəzi Asiya ölkələrinin də böyük külək və günəş enerjisi potensialı var. Bu regiondakı dövlətlər də istehsal etdikləri "yaşıl enerji"ni "Xəzər-Qara dəniz-Avropa" dəhlizi ilə ixrac edə bilərlər. Bu istiqamətdə Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında danışıqlar aparılır. Bütün bunları nəzərə alaraq, yaşıl dəhlizin böyük əhəmiyyət kəsb etdiyini söyləyə bilərik.

Sonra digər çıxış edənlər Azərbaycanda karbohidrogen kəşfiyyatı və hasilatını artırmaq üçün yeni texnoloji həllərin öyrənilməsi, süni intellekt, böyükhəcmli məlumatlar, bulud hesablama və blokçeyn, enerji sektorunda müasir texnoloji həllərin tətbiqi üçün iqtisadi modellər kimi mövzular ətrafında fikirlərini bölüşüblər.

Sessiya və panel müzakirələrdə qeyd olunub ki, Bakı Enerji Forumu özünü səmərəli əməkdaşlıq üçün etibarlı platforma kimi təsdiqləyib.

**M.MUSTAFAYEV,**
**“Respublika”.**